**ABŞ dövlət katibi Marko Rubiodan vacib sözlər**

*24.06.2025*

*Keyhan London* - 22 iyun 2025-ci il (1 tir 1404) **ABŞ dövlət katibi Marko Rubio** “Fox Business” telekanalına verdiyi müsahibədə İslam Respublikasının danışıqlarda vaxt itkisinə və İrandakı nüvə obyektlərini bombalamasına işarə edərək dedi: "Onlar Donald Trampla oynamaqda böyük səhv etdilər".

***- Dövlət katibi Marko Rubio ABŞ-ın hərəkətindən sonra ilk müsahibəsində bizə qoşulur. Cənab nazir, burada olduğunuz üçün sizə təşəkkür edirik. İndi İranla müharibə vəziyyətindəyik?***

- Yox, deyilik. Bu, İrana qarşı müharibə deyil. Bu, çox sadə bir məsələdir. 67gün öncə ABŞ prezidenti iranlılara məktub göndərdi ki, sizə nüvə silahı hazırlamağa, hərbi nüvə proqramını icra etməyə icazə verilməyəcək. Gəlin danışıqlar aparaq, mən bu məsələni diplomatik və sülh yolu ilə həll etmək istəyirəm.

Ancaq son 35 ildə hər bir Amerika prezidenti ilə oynadıqları oyunu onunla (*Trampla*) da oynamağa çalışdılar. Prezident onlara dedi ki, əgər razılığa gəlməsək və istədiyimiz də budursa, onda mən başqa yol tutmalı olacağam. Və dünən gecə həmin işi gördü. [İran vaxtı ilə 22 iyun (1 tir) bazar günü səhəri] O, başqa bir yol seçdi. Amma bu seçim İran [rejiminin] seçimi idi. Bu yolu biz seçmədik - onlar seçdilər. Onlar Donald Trampla oynamaqla böyük səhvə yol verdilər və prezident Tramp dünən gecə hərəkətə keçdi.

Düşünürəm ki, bu gün dünya 24 saat əvvəl olduğundan daha təhlükəsiz və daha sabitdir. [Bazar ertəsi, 23 iyun] Bizim hərəkətimizi pisləyən və bununla bağlı bəyanatlar verən bir sıra ölkələr pərdə arxasında bizimlə razılaşdılar ki, bu hərəkətimiz zəruri imiş. Onlar öz ictimai rəyləri üçün belə mövqe tutmalıdırlar, lakin dünən gecə İranda baş verənlərdən narazı olanlar yalnız İran rejimidir.

***-İranda kimdənsə nəsə eşitmisiniz və cavab reaksiyası gözləyirsinizmi?***

- Əgər belə bir cavab reaksiyası verəcəklərsə, bu, onların indiyə qədər etdikləri ən pis səhv olacaq. Baxın, biz İranın hava məkanına istədiyimiz kimi daxil olub, çıxa bilərik. Biz bunu dünən gecə etdik. Prezident ordumuzu dünyanın o başından göndərdi. İçəri girdilər, əməliyyat etdilər, qayıtdılar. Bizə bir güllə də atılmadı. Biz onların hava məkanından çıxana qədər nə baş verdiyini belə bilmədilər. Vurulduqlarını dərk edənədək təyyarələrimiz İranın hava məkanından çıxdılar.

Buna görə də İran cavab reaksiyası versəydi, bu, fəlakətli səhv olardı. Amma bizim məqsədimiz bu deyil. Biz İrana müharibə elan etməmişik. Biz İranla müharibə istəmirik. Əgər bizə hücum etsəydilər, bu, onlar tərəfindən dəhşətli səhv olardı. Belə ki, bizim heç vaxt görmədikləri imkanlarımız var. Açığı, biz bunu istəmirik. Bizim məqsədimiz odur ki, İran heç vaxt nüvə silahına malik olmasın. Əgər onlar hər hansı digər ölkə kimi elektrik stansiyalarının olduğu mülki nüvə proqramı istəyirlərsə - dünyanın bir çox ölkəsində olduğu kimi - bunu edə bilərlər. Onlara belə bir sövdələşmə təklif olunub. Onlar bunu rədd

etdilər. Bizi oynatmağa çalışdılar. 10 gün cavab vermədilər və indi prezident buna cavab verməli idi.

***- Prezident bu yaxınlarda bir paylaşımında dedi ki, İran liderinin harada gizləndiyini bilir, amma hələlik onu hədəfə almağa hazır deyil. İranda rejim dəyişikliyi ilə bağlı baxışlarınız haqqında nə deyə bilərsiniz?***

- Əlbəttə, məqsədimiz bu deyil. Təxminən 65-67 gün əvvəl prezidentin İranın Ali Rəhbərinə göndərdiyi məktubda məqsədimiz açıq-aydın göstərilmişdi. Həmin məktubda o, "Sizin nüvə silahınız olmayacaq, gəlin məsələnin sülh yolu ilə həllini müzakirə edək. Həqiqətən, həm İran, həm Amerika, həm də dünya üçün yaxşı olan bir razılaşma əldə edə bilərik. Amma bunu etməsəniz, mən məsələnin həllinə başqa cür yanaşmalı olacağam", - dedi.

İranlılar [İslam Respublikası] bu məktubu bəyənmədilər və ona cavab vermədilər. Onlar saxta danışıqlara girib prezidenti oyuna gətirməyə çalışdılar. Onlar əvvəlki prezidentlərə etdiklərini Trampa da edə biləcəklərini düşünürdülər. Amma dünən gecə başa düşdülər ki, bu dəfə belə olmayacaq. Və dünya bunu dərk etdi. Belə bir yanaşma təkcə bu məsələ üçün deyil, dünyada baş verən bir çox başqa məsələlər üçün vacibdir. Tramp dediyini edən prezidentdir. Və onun məsələyə belə bir yanaşması İran rejimi də daxil olmaqla, çoxlarını şoka saldı.

***-Bu gün İranın nüvə imkanlarını necə dəyərləndirirsiniz?***

- Onlar mütləq zəifləyiblər. Baxın, əgər İran nüvə silahı əldə etməkdə qərarlıdırsa, məncə, bu, rejimin sağ qalması üçün çox təhlükəli olardı. Mən həqiqətən inanıram ki, bu, rejimin sonu olacaq.

Texniki cəhətdən İranın imkanları mütləq geri çəkildi - təkcə bizim dünən gecə etdiklərimizə görə deyil, israillilər bundan əvvəl də bəzi qeyri-adi işlər görmüşdülər. Nəticə etibarilə qərar İranındır. Bu, çox sadə bir qərardır. Əgər onlar elektrik enerjisi istehsal etmək üçün nüvə reaktorlarına sahib olmaq istəyirlərsə, bunun bir çox yolu var - bir çox ölkələr bunu özləri uranı zənginləşdirmədən ediblər.

Yox, əgər istədikləri dağların dərinliklərində heç kimin görə bilməyəcəyi və müfəttişlərin yalnız onların icazəsi ilə daxil ola biləcəyi gizli proqramdırsa, böyük problemlərlə üzləşəcəklər. Çünki bu, təhlükəli, zorakı, ekstremist rejimdir. Bizim İran xalqı ilə heç bir problemimiz yoxdur -- dünən gecə biz İran xalqına hücum etmədik; nüvə obyektlərinə hücum etdik. Əgər onların istədikləri dünyadakı mülki nüvə proqramları ilə heç bir əlaqəsi olmayan və daha çox bomba düzəltməyə çalışmaq kimi olan gizli proqramdırsa, yenə də təkcə bizimlə deyil, dünyanın bir çox başqa ölkələri ilə də problemləri olacaq.

***- Hansı problemlər? Nə demək istəyirssiniz?***

- Hazırda qarşılaşdığımız problemlər kimi. Baxın, niyə Səudiyyə Ərəbistanı, Küveyt, Qətər və BƏƏ-də bazalarımız var? Bütün bu bazalar bu ölkələri İrandan qorumaq

üçündür. Hizbullah niyə mövcuddur? İrana görə. Həmas niyə mövcuddur? İrana görə. Bəs husilər? İrana görə. İraqda Amerika əsgərlərini şikəst edən və öldürən yol kənarındakı bombaları kim hazırladı? İran [rejimi]. Bu bölgədəki bütün problemlərin arxasında onlar durur. Onlar bütün Yaxın Şərqdə qeyri-sabitliyin mənbəyidir, yeganə mənbəyidir. 40 ildir ki, dünya bunun bədəlini ödəyir.

İndi təsəvvür edin ki, bu rejim yalnız bir nüvə silahı əldə etsəydi, ya da bir nüvə silahına sahib olmağın astanasında olsaydı, nə olardı. Dünya belə bir vəziyyətlə üzbəüz idi. Bu qəbuledilməzdir. Prezident Tramp dünən gecə dünyaya yaxşılıq etdi və indi İran [rejimi] oyanmalıdır. İran rejimi oyanıb deməlidir ki, əgər biz həqiqətən də ölkəmizdə nüvə enerjisi istəyiriksə, onu əldə etməyin bir yolu var. Təklif hələ də masadadır. Biz sabah onlarla danışıb prosesə başlamağa hazırıq. Steve Whitkoff onlarla razılığa gəlmək üçün dünyanı çox gəzdi, lakin onlar çox oynadılar. Çox oynadılar və indi nəticəsini gördülər.

***- Avropalılar son bir neçə həftə ərzində bu böhranda ləng davrandılar. Avropadakı tərəfdaşlarımızdan və müttəfiqlərimizdən nə gözləyirsiniz?***

- Baxın, mən hesab edirəm ki, avropalılar - xüsusilə Almaniya, Fransa və İngiltərə - İranın nüvə silahı əldə etməməli olduğunu çox açıq şəkildə bəyan etdilər. Əslində, Fransa ilk dəfə bir addım da irəli getmiş oldu. Belə ki, İranın uranı zənginləşmə qabiliyyətinə malik olmamasının zəruriliyini bildirdi. Bizim artıq üzvü olmadığımız, amma digər məlum ölkələrin hələ də üzvü olduqları JCPOA sazişindən sonrakı dövr üçün sanksiyalar hələ də qüvvədədir. İran [rejimi] bu razılaşmanı tamamilə pozur. Buna görə də üç ölkə bu ilin oktyabrına qədər İran [rejimi] əleyhinə sanksiyaları bərpa edib-etməmək barədə qərar verməlidir. Biz onları İrana bu istiqamətdə təzyiqləri davam etdirməyə təşviq edirik, çünki bu, başqa bir təzyiq vasitəsidir.

***- Bəs Yaxın Şərqdəki müttəfiqlərimiz? Maraqlıdır ki, İranın müvəkkillərindən heç bir reaksiya görməmişik - istər İranın özü, istər Hizbullah, istərsə də Husilər. Sizcə və təbii ki, ilk xarici səfərində Yaxın Şərqdəki dostlarımızla münasibətləri gücləndirməyə çalışan prezident Tramp necə düşünür?***

- Yaxşı, biz açıq şəkildə bildirdik ki, bu proxy qruplardan hər hansı biri Amerikaya hücum edərsə, biz onlarla nəinki məşğul olacağıq, hətta İranı da məsuliyyətə cəlb edəcəyik. Bu hücumların arxasında kimin dayandığını bilirik. Bu, onların yayılmış gedişlərindən biridir; İraq və Suriyada kiçik şiə hərbi qrupları yaradırlar və sonra onların arxasında gizlənirlər, guya özləri bu işə qarışmırlar. Biz bilirik ki, bu onların öz işidir, o cümlədən Husilər. Deməli, İran bu qrupların hərəkətlərinə görə məsuliyyət daşıyacaq.

***- İranın nüvə silahına malik olmasına cəmi bir həftə qaldığını söyləmək düzgündürmü və bu məqamda hər şey məhv edilibmi?***

- Məncə, onların nüvə silahı yaratmaq üçün lazım olan hər şeylərinin olduğunu söyləmək düzgün olardı. Onlar uranı zənginləşdirmək qabiliyyətinə malikdirlər. Onların ən azı 9 və ya 10 bomba hazırlamaq üçün kifayət qədər zənginləşdirilmiş uranı var. Onu 60%-dən 90%-ə qədər zənginləşdirmək üçün cəmi bir neçə gün lazımdır. Əminik ki,

onların silah hazırlama planları var. Onların nüvə başlıqları daşıya bilən orta və yaxın mənzilli raketləri var. Yeri gəlmişkən, onlar kosmik proqrama sahib olduqlarını iddia edirlər. İran Aya getməyə hazırlaşmır ki? Onların kosmik proqramı var, çünki onlar qitələrarası ballistik raketlər - Şimali Koreyanın indi bacardığı kimi, bir gün ABŞ-a da çata biləcək uzaqmənzilli raketlər yaratmaq istəyirlər. Onların arxasınca getdikləri şey budur.

***- Cənab nazir, son sual, İranın [rejimin] dünya üzrə neft nəqlini pozmaq üçün Hörmüz boğazını bağlamaq üçün addım atmasını gözləyirsinizmi?***

- Mən Pekindəki Çin hökumətini bu məsələ ilə bağlı İranla əlaqə saxlamağa təşviq edirəm, çünki onlar neft idxalına görə Hörmüz boğazından çox asılıdırlar. İran rejimi bunu etsə, bu, növbəti fəlakətli səhv olacaq. Bu, İran üçün iqtisadi intihar olacaq. Təbii ki, belə bir hərəkətə qarşı çıxmaq üçün bizim seçimlərimiz var. Amma digər ölkələr də bu məsələyə diqqət yetirməlidir. Bu, digər ölkələrin iqtisadiyyatına bizimkindən qat-qat pis zərər vuracaq. Fikrimcə, bu, təkcə bizdən deyil, başqalarından da ciddi reaksiya tələb edən kütləvi eskalasiya olacaq.

***- Cənab nazir, Çin [İran rejiminin] ortağı idimi? Biz qırıcıların İrana daxil olduğunu bilirik, lakin bu təyyarələrin yükünün nə olduğunu bilmirik.***

- Xeyr, Çinin bu məsələdə iştirakına dair əlimizdə heç bir sübut yoxdur.

***Mənbə:*** https://news.gooya.com/2025/06/post-99202.php

***Təqdim etdi: Səməd Bayramzadə***